**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

---

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

==========================================================

*Əlyazması hüququnda*

**SÜLEYMANOVA AFAQ İSA QIZI**

# AQRAR SAHƏDƏ QİYMƏT MEXANİZMİ VƏ ONUN FORMALAŞDIRILMASININ İQTİSADİ PROBLEMLƏRİ

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2013**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor **İslam Şamil oğlu Qarayev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor **Əli Qənbərəli oğlu Əlirzayev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent **Əsli Alı qızı Qurbanova**

**Aparıcı təşkilat:** **AMEA-nın İqtisadiyyat İnstitutu**

Müdafiə «30» may 2013-ci il saat $15^{30}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «29» aprel 2013-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Ölkədə iqtisadi islahatların hazırkı mərhələsində başlıca problemlərdən biri aqrar sahənin inkişafına təkan verən ən vacib atributlarının biri olan qiymət mexanizmi və onun elmi əsaslarla formalaşdırılması və səmərəli fəaliyyət mexanizminin təmin edilməsidir. Qiymət mexanizmi bütövlükdə ölkədə sosial və iqtisadi inkişafa təsir göstərən əsas iqtisadi vasitədir. Qiymət mexanizmi düzgün qurulmalı və dəyər qanununun fəaliyyətinin qanunauyğun nəticəsi olmalıdır. Onun yenidən qurulmasının və son reallıqlar əsasında təkmilləşdirilməsinin stimullaşdırıcı xarakterə malik olması olduqca vacib məsələlərdən biridir və aqrar sahədə bu problemin həllinə böyük ehtiyac vardır.

Belə ki, aqrar sahədə müxtəlif mülkiyyət və çoxukladlı təsərrüfatçılıq formalarının mövcud olması, torpağın kəndlilərə verilməsi, iqtisadi münasibətlərin yenidən qurulması, yeni qiymət formasının fəaliyyət mexanizmi sisteminin bütövlükdə yenidən qurulmasını tələb edir. Məhz səmərəli qiymət mexanizminin təşəkkülü mülkiyyət formalarının faydalılığı, onun idarə olunmasının səmərəliliyinin ölçüsü kimi çıxış edir.

Hazırda aqrar sahədə fəaliyyət göstərən qiymət sisteminin bu günün tələbinə tam cavab verməsini və onun əsas obyektiv amillər əsasında qurulmasını nəzərə alsaq, bu problemin elmi tədqiqinin nə dərəcədə böyük sosial-iqtisadi və elmi əhəmiyyət kəsb etdiyinin bir daha görə bilərik.

Aqrar sahədə mülkiyyət formalarından asılı olmayaraq fəaliyyət göstərən dövlət və özəl təsərrüfat strukturları əmtəə və xidmət sahələrində qiymət əmələgətirən mürəkkəb mexanizmləri haqqında həm nəzəri və həm də praktiki biliklərə malik deyillər. Ona görə də qiymətlərin qoyulmasında səhvlərə yol verilir ki, bu da özünü son maliyyə yekunlarında göstərir və bəzi hallarda təsərrüfat subyektləri ziyanla işləyir, bəzən də təsərrüfatların iflası ilə nəticələnir.

Bazar münasibətləri şəraitində müəssisə və təsərrüfat subyektlərinin kommersiya uğurları bilavasitə əmtəə və xidmət işlərinin qiymət əmələgəlməsinin dəqiq seçilmiş strategiya və taktikasından asılıdır.

Qiymət mexanizmi eyni zamanda iqtisadi mexanizmin həlledici amili olub, onu formalaşdırmadan təsərrüfat subyektlərinin səmərəli idarə olunması qeyri-mümkündür. Belə ki, qiymətin köməyi ilə investisiya qoyuluşları, əmlakın girov qoyulması və sığorta olunması, dövlət əmlakının özəlləşdirilməsi, əmtəəlik məhsulların satışı, əsas istehsal fondların strukturunun təşkili, əmək məhsuldarlığının və əmək haqqının hesablanması stimullaşdırma mexanizminin təşkili və s. səmərəli və çevik qiymətləndirmə mexanizmlərinin yaradılmasını tələb edir. Qiymətin səviyyəsinin (aşağı, orta və yuxarı) hədlərinin müəyyən edilməsi ölkədə əmtəəlik məhsullarnın qiymətlərinin təkmilləşdirilməsində böyük əhəmiyyət kəsb edir. Belə ki, ölkədə pambıq, tütün, çay, üzüm, meyvə, tərəvəz, barama, fındıq kimi strateji əhəmiyyətli və ixrac yönümlü məhsullar istehsal edilir ki, onların da əksəriyyəti ölkədən kənara ixrac olunur.



Bu sahədə qarşıda duran əsas problemlərdən biri qiymət mexanizminin elmi əsaslarla yenidən qurularaq, sərf olunan ictimai-zəruri əməyin kütləsinə uyğun gəlməsi, stimullaşdırıcı xarakterə malik olan iqtisadi münasibətlərin qurulmasında ən əsas iqtisadi rıçaqlardan biri kimi səmərəli qiymət modelinin hazırlanmasıdır. Odur ki, aqrar sahənin səmərəli fəaliyyət mexanizminin təmin edilməsində və bu sahədə idarəetmənin formalaşdırılmasında mühüm rol oynayan qiymət sisteminin təkmilləşdirilməsinə dair tədqiqat işinin aparılması günün tələblərindən irəli gələn həm nəzəri və həm də praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Ən vacib iqtisadi rıçaqlardan biri kimi qiymət mexanizmi, onun elmi əsaslarla düzgün müəyyənləşdirilməsi və istifadə olunması problemi dünya iqtisadçı alimlərini düşündürmüş, onların tədqiqatlarında əsas yerlərdən birini tutur. Bu mövzu ölkəmizin iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, İ.Ş.Qarayev, İ.H.İbrahimov, V.C.Novruzov, Ə.Q.Əlirzayev, Ə.Ç.Verdiyev, S.V.Salahov, İ.H.Alıyev, X.A.Kazımlı, K.S.Qafarov, B.A.Ataşov, A.T.Əhmədov, R.Ə.Balayev və başqaları tərəfindən araşdırılmışdır.

Bu sahədə xarici ölkə alimlərindən A.Smit, D.Rikardo, M.Porter, N.E.Vasilyev, Q.N.Çubakov, V.R.Sençaqov, L.N.Marenkov P.Kruqman, C.Danninqin, V.V.Vlasov, D.Kantvellin, D.Okslinin mühüm tədqiqatlar aparmışlar.

Aqrar sahədə qiymət mexanizmi ilə bağlı çoxsaylı elmi məqalələr yazılmış, elmi-tədqiqat işləri aparılmışdır. Lakin yeni mülkiyyət münasibətlərinə şəraitində aqrar sahənin inkişafında olduqca mühüm əhəmiyyət kəsb edən qiymət mexanizminin təkmilləşdirilməsinin rolu və səmərəliliyinin artırılması, qiymət sisteminin çevik və çoxnövlü olması, onun stimullaşdırma təsirinin daha da güc-ləndirilməsi, yeni qiymət mexanizmi şəraitində aqrar sahənin perspektiv inkişafında rolunun artırılmasına kifayət qədər səy göstərilməmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatda məqsəd bazar münasibətlərinin tələbləri əsasında formalaşan aqrar bazarın səmərəli inkişafında mühüm rol oynayan qiymət mexanizminin formalaşdırılmasının elmi, nəzəri və metodoloji əsaslarını və bazar qiymətlərinin formalaşmasının qanunauyğunluqlarını öyrənmək, mövcud qiymətlərin struktur tərkibində sosial-iqtisadi nəticələri və meylləri aşkara çıxarmaq və qiymətləndirmək, bu əsas-

da da qiymət mexanizminin formalaşdırılması zəruriliyinə, prinsiplərinə və yollarına dair elmi cəhətdən əsaslandırılmış nəticə və təkliflər hazırlamaqdan ibarətdir.

Tədqiqatın məqsədinə uyğun aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- aqrar sahədə bazar mexanizminin formalaşdırılmasının elmi-nəzəri əsaslarının öyrənilmişdir;
- bazar qiymətlərinin formalaşması və qanunauyğunluqlarının müəyyənləşdirilmişdir;
- qiymət mexanizmin və əmtəəlik məhsullar satışının mövcud vəziyyətinin və dəyişmə meyllərinin öyrənilmişdir;
- qiymətlərin dövlət tənzimlənməsi mexanizminin mövcud vəziyyəti və inkişaf meylilәri öyrənilmişdir;
- qiymət mexanizmin təkmilləşdirilməsi və qiymətin dövlət tənzimlənməsi mexanizminin prioritet istiqamətlərinin əsaslandırılmışdır.

**Tədqiqatın obyekti** respublika iqtisadiyyatının aqrar sahəsində fəaliyyət göstərən müəssisə və təsərrüfat qurumlarıdır.

**Tədqiqatın predmeti** aqrar sahədə qiymət mexanizmi, onun formalaşdırılmasının iqtisadi problemləri, bu istiqamətdə problemlərin həlli yolları və təkmilləşdirmə tədbirləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** Azərbaycan Respublikası Nazirlər Kabinetinin aqrar sahədə fəaliyyətdə olan qiymət mexanizminin formalaşdırılması ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktları, aparıcı iqtisadçı alimlərin elmi əsərləri, tədqiqat işləri inkişaf etmiş dünya ölkələrinin iş təcrübələri, informasiya materialları və s. təşkil edir. İnformasiya kimi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Statistika Komitəsinin məlumatlarından qabaqcıl sahibkarlıq təsərrüfatçılıq subyektlərində rəqabət amili bazarlarda qiymətlərin formalaşması məlumatlarından istifadə edilməsidir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərittifaq, həmçinin Kənd Təsərrüfatı və Maliyyə Nazirliklərinin, Mərkəzi Bankın və digər müxtəlif iqtisadi qurumların statistik hesabatları və digər materialları, bu istiqamətdə müvafiq elmi-tədqiqat institutlarının həyata keçirdikləri iqtisadi tədqiqatların nəticələri, əldə etdikləri təklif və tövsiyələr təşkil edir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- aqrar sahədə qiymətlərin əmələ gəlməsinin nəzəri-metodoloji məsələləri araşdırılaraq qiymətlərin yeri və rolu müəyyənləşdirilmişdir;
- aqrar sahədə yeni mülkiyyət münasibətlərinin formalaşdırılması şərai-

tində qiymət mexanizmin yaradılaraq formalaşdırılması – müqavilə, təsərrüfatlararası və təsərrüfatlardaxili hesablaşma əsasında əmtəə mübadiləsinə üstünlük verilməsi, tələb-təklif prinsipləri əsasında qiymət mexanizmin formalaşdırılması istiqamətləri elmi cəhətdən əsaslandırılmışdır;

- aqrar sahədə qiymət mexanizmin təkmilləşdirilməsinin prioritet istiqamətləri müəyyənləşdirilmişdir;
- qiymətlərin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi yolları müəyyənləşdirilmişdir;
- səmərəli qiymət mexanizmin formalaşması istiqamətləri əsaslandırılmışdır;
- yeni qiymət mexanizmi şəraitində aqrar sahənin inkişaf perspektivləri, ərzaq bazarının formalaşmasının səmərəli inkişaf yolları müəyyənləşdirilmiş və praktiki əhəmiyyətə malik konkret nəticələr hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Respublikada aqrar sahənin inkişafında qiymət sisteminin vacib rolu nəzərə alınaraq dissertasiyada hazırkı qiymət sistemi, onun formalarına mərhələləri təhlil edilmiş, mütərəqqi beynəlxalq təcrübə öyrənilmiş, qiymət mexanizminin təkmilləşdirilərək formalaşdırılması üçün dövlətin tənzimləmə mexanizmlərindən istifadənin keyfiyyətinin artırılması aspektləri, qiymət sisteminin təkmilləşdirilməsinin aqrar sahənin səmərəli inkişafına təsirinin əsaslandırılması məqsədilə onların aqrar sahənin idarə edilməsində rolu əsaslandırılmışdır.

Qeyd edilən problemlərin konkret faktlara, real iqtisadi proseslərə əsaslanması çıxarılan nəticələrin əməli xeyli artırmağa imkan yaratmışdır.

Bu istiqamətdə dissertasiyada çıxarılan nəticələr, əsas müddəalar həm aqrar sahədə fəaliyyət göstərən müəssisə və təsərrüfatlarda və digər idarəetmə orqanlarının, müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsində, məqsədli proqramların işlənib hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiya işinin əsas müddəaları müxtəlif elmi nəşrlərdə, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda keçirilən elmi-praktiki seminarlar və konfranslarda şərh edilərək bəyənilmiş və elmi məcmuələrdə dərc olunmuşdur.

Tədqiqat nəticəsində irəli sürələn təkliflər Kürdəmir Regional Aqrar Elm Mərkəzi tərəfindən istifadə üçün qəbul edilmişdir (27.03.2012-ci il, №38).

**Dissertasiyanın həcmi və quruluşu**. Dissertasiya işi 166 səhifədən ibarət olub giriş, üç fəsil, təkliflərdən ibarət olub, işin sonunda istifadə edilmiş ədəbiyyat siyahısı verilmişdir. Burada 14 cədvəl verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında 84 adda mənbə göstərilmişdir.



## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin girişində** mövzunun aktuallığı əsaslandırılır, öyrənilmə vəziyyəti təhlil edilir, məqsəd və vəzifələri göstərilməklə tədqiqatın obyekti, elimi yeniliyi və praktiki əhəmiyyəti qeyd edilir, həmçinin tədqiqatın nəticəsinin sınaqdan keçirilməsi, istifadə edilməsinin qısa şərhi verilir.

**Birinci fəsildə "Qiymət sistemi mexanizminin formalaşdırılması və onun inkişafının elmi-nəzəri və metodoloji əsasları"** öyrənilir. Burada qiymətin iqtisadi mahiyyəti əsaslandırılır, onun inkişaf mərhələləri xarakterizə olunmaqla təkamülü, qiymət münasibətlərinin formalaşmasının zəruriliyi öz əksinin tapır. Qiymət ən vacib iqtisadi rıçaqlardan biri olub, onun bütövlükdə iqtisadi mexanizmin formalaşmasında mühüm rol oynayır. Onun vasitəsilə istehlakçı və istehsalçı, müəssisələrdə dövlət, dövlətlə əhali, müəssisələrlə icraçılar, müəssisə ilə müəssisə arasında iqtisadi münasibətlər formalaşır və inkişaf edir. Əmtəə-pul münasibətlərinin mövcud olduğu hər bir cəmiyyətdə sosial-iqtisadi inkişafın ən vacib atributlarından biri də qiymət və onun elmi əsaslarla düzgün müəyyənləşdirilməsi və səmərəli fəaliyyətinin təmin edilməsidir. Bir sözlə qeyd etmək olar ki, qiymət elə bir iqtisadi anlayışdır ki, onun formalaşmasının əhəmiyyətinin əsaslandırılmasının sübuta heç də ehtiyacı yoxdur. Qiymət məhsulların alqı-satqısı ilə yanaşı, istehsal, bölgü, mübadilə və istehlak da daxil olmaqla, bütövlükdə iqtisadi prosesləri tənzimləyir. Qiymət eyni zamanda cəmiyyətdə mövcud olan və yeni yaradılmaqda olan bütün funksiyaları, iqtisadiyyatda nəinki fərdi ailə, eyni zamanda müəssisə, sahə, ərazi və ölkə miqyasında təsir gücünə malikdir. İqtisadi qanunların fəaliyyəti qiymətin əmələ gəlməsi prosesinin əsası olub, qanunun təsiri altında formalaşır.

Qiymət sistemi mürəkkəb iqtisadi kateqoriya olub cəmiyyətdə mövcud olan və yeni yaranmaqda olan bütün funksiyaları, iqtisadiyyatda nəinki fərdi ailə, eyni zamanda müəssisə, sahə, ərazi və ölkə miqyasında təsir gücünə malikdir. Qiymət sisteminin bu formada 10 qanunu və iqtisadi qənaət qanun götürmüşdür. O, bunu belə əsaslandırırdı ki, dəyər qanunu dəyərin kəmiyyətinin sərf olunmuş əməyə uyğun olaraq müəyyən edir, qənaət qanunu isə xərclərin aşağı düşməsinin dinamikasını ifadə edir. Məhsuldar qüvvələrin inkişafı əməyin nəticələrinin faydalılığının yüksəldilməsinə, iş vaxtı məsrəflərinin hər vahidinə düşən istehlak dəyərinin artması ilə nəticələnir.

Həmin iqtisadi qanunların fəaliyyəti qiymətin əmələ gəlməsi prosesinin əsası hesab olunur. Qiymətin bazası qeyd edilən qanunların təsiri altında formalaşır. Lakin digər amillərdə öz təsirini göstərir. Onlardan tələb və təklif qanunu, pul tədavülü qanunu, dövlətin fiksal siyasəti, bazarın inhisarlaşması, istehsaldan kənar, lakin qiyməti formalaşdıran və s.

Bazar münasibətlərinin köklü fərqi qiymətlərin real olaraq formalaşması prosesi istehsal sahəsində deyil, tədavül, məhsulun reallaşdırılması sahəsində, daha doğrusu, tələb və təklifin təsiri altında baş verir. Qiymət vasitəsilə əmtəələrin hazırlanmasına nə qədər əmək, xammal, komplektləşdirici məmulat sərf oluna bilər və yaxud sərf olunmuşdur. Son nəticədə qiymət təkcə məcmu əmtəə istehsalı və tədavülü xərclərinin kəmiyyətini deyil, həm də mənfəətin ölçüsünü müəyyən edir.

Qiymətin ən başlıca funksiyalarından biri stimullaşdırıcı xarakterə malik olmasıdır. Qiymətin köməyi ilə elmi-texniki tərəqqini, resurs xərclərinə qənaəti, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasını, istehsal və istehlak strukturlarının dəyişdirilməsini stimullaşdırmaq və yaxud ləngitmək olar.

Qiymətin bölüşdürücü funksiyası bazar amillərinin təsiri altında qiymətin dəyərdən kənarlaşması ilə əlaqədardır. Qiymətlər milli gəlirin yığım və sosial fondları, əhalinin sosial qrupları arasında bölüşdürülməsi və yenidən bölüşdürülməsində iştirak edirlər. Bu funksiyanın köməyi ilə cəmiyyətin sosial vəzifələri həll edilir.

Qiymətlərin yerinə yetirdikləri funksiyalara və qarşılıqlı əlaqələrinə görə iki hissəyə görə fərqləndirirlər. Birinci hissə qiymətin özünü, onun növlərini, strukturunu, həcmini və dəyişmə dinamikasını, ikinci hissə isə qiymətin əmələ gəlməsini və onun inkişaf etdirilərək formalaşmasını göstərir.

Qiymət sisteminin formalaşmasının bazar prinsipləri belə qənaətə gətirib çıxarır ki, «Qiymət əmtəələrin» maddi nemətlər və xidmətlərin mübadilə prosesində təzahür edən dəyərini əks etdirir». Bu fikrə iki mövqedən yanaşmaq olar. Birinci halda əmtəələrin qiyməti faydalılıq və səmərəliklə bilavasitə əlaqələndirilirsə o istehlak obyekti kimi qiymətləndirilir. İkinci halda isə qiymətin iqtisadi mahiyyətinin mübadilə şəraitində təzahür etdiyi göstərir. Bu isə o deməkdir ki, bazar və alqı-satqı prosesi olmadan qiymət haqqında danışmaq sadəcə olaraq mümkün deyil və qiymətləri yalnız bazar müəyyən edə bilər.

Aqrar bazara keçidlə əlaqədar qiymət sistemi dəyişikliyə uğramış və yeni qiymət sistemi formalaşmağa başlamışdır. Yeni iqtisadi şəraitə uyğun qiymət sisteminin formalaşması hələlik başa çatmasa da bazar münasibətlərinin spesifikliyini əks etdirir və istehsalçılar ilə istehlakçılar arasında alqı-satqı prosesinin həyata keçirilməsinə şərait yaradır. Lakin qiymətlərin formalaşmasında olan bu sərbəstlik özlüyündə ayrı-ayrı qiymət növləri arasında əlaqəni və bağlılığı təmin etmir. Ona görə də qiymət sisteminin formalaşdırılması üçün məqsədyönlü işlər görülməli, sərbəst qiymət əmələ gəlməsi əsas götürülməklə yeni çevik və səmərəli qiymət sistemi mexanizminin yaradılaraq formalaşdırılması öz həllini tapmalıdır.



Aqrar sahədə qiymət əmələgəlmənin metodoloji əsaslarının mühüm elementi qiymət əmələgəlmənin prinsipləridir. Qeyd etmək lazımdır ki, aqrar bazarın bütün sahələr üzrə hələlik formalaşmayan qiymətlər istehsalın artırılması sahəsində stimullaşdırıcı təsiri öz həllini tam tapmamışdır.

Qeyd etmək lazımdır ki, bazar münasibətlərinə keçidlə əlaqədar olaraq əmtəəlik məhsullarnın qiymətəmələgəlməsi və onım metodoloji əsasları müəyyən dəyişikliklərə məruz qalmışdır. Bu mürəkkəb iqtisadi sistemdə qiymətəmələgəlmənin metodoloji əsasları hələlik tam formalaşmamışdır.

Ümumiyyətlə qiymətin əmələ gəlməsinin metodologiyası dedikdə qiymətəmələgəlməsinin ümumi qaydaları, prinsipləri və metodlarının məcmusu başa düşülür; buraya: qiymətəməgəlmənin konsepsiyası; qiymətlərin təyin olunması və əsaslandırılması; qiymət sisteminin formalaşdırılması və qiymətəməgəlməsinin idarə olunması daxildir.

Yeni iqtisadi şərait üçün qiymətlərin metodoloji əsasları işlənib hazırlanarkən metodologiya ilə metodika fərqlənməlidir. Qiymətəmələgəlmənin metodologiyası əsasında adətən onun strategiyası işlənib hazırlanır, metodika ilə həmin strategiyanın reallaşdırılması zamanı bir element kimi çıxış edir və özündə konkret tövsiyə və vəsaitləri birləşdirir.

Əmtəəlik məhsulların qiymətlərinin məqsədyönlülüyü prinsipi ölkə iqtisadiyyatının prioritet sahələrinin inkişafı və həlli daha vacib əhəmiyyət kəsb edən sosial problemlərlə bilavasitə bağlıdır. Bu zaman qiymətlərdən məqsədli şəkildə istifadə olunmaqla ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının dolğun ödənilməsi qayğısına qalmır və daha vacib hesab olunan istehsal sahələrinin inkişafını təmin edir.

Qiymətlərin əmələ gəlməsi metodologiyasının ən mühüm məsələlərindən biri də əmtəəlik məhsullar qiymətlərinin səviyyələrinin təşkilinin məqsədyönlü şəkildə idarə olunmasıdır. Bu sahədə istifadə olunan maddi-texniki vasitələrin və avadanlıqların qiymətlərinin kəskin dəyişdiyi şəraitdə bu məsələyə daha çox diqqət yetirilməlidir.

Qiymət əmələgəlmənin metodoloji əsaslarının ən mühüm məsələlərindən biri qiymət sistemi və onun strukturunun düzgün formalaşdırılmasıdır. Hazırda bu məsələ - yəni qiymət sistemi və onun tərkibinin formalaşdırılması, qiymət sisteminin elementlərini bir-biri ilə bağlılığının və əlaqəliliyinin təmin olunması təxirəsalınmaz vəzifələr sırasına daxildir. Çünki qiymət sistemini formalaşdırmadan və qiymətlərin işləmə mexanizmini hazırlamadan bütövlükdə aqrar sahəyə daxil olan bölmə və sahələrin zəruri templə inkişafını təmin etmək mümkün deyildir.

**Dissertasiya işinin ikinci fəslində - “Aqrar sahədə qiymət mexanizminin dövlət tənzimlənməsinin hazırkı vəziyyəti və inkişaf meylləri”**

təhlil edilir. Burada əsasən, ölkə iqtisadiyyatının aqrar sahəsində qiymət mexanizminin, əmtəəlik məhsullar satışının qiymətlərinin mövcud vəziyyəti araşdırılır. Qeyd olunur ki, yeni iqtisadi mexanizmin formalaşdığı indiki şəraitdə ən əsas məsələlərdən biri mövcud qiymət mexanizminin təkmilləşdirilməsi və onun bazar tələbləri əsasında yenidən qurulmasıdır. Yeni qiymət mexanizmi obyektiv reallığa əsaslanmalı, son dərəcə çevik olmalı və sosial-iqtisadi inkişafı sürətləndirməlidir. Qiymətin ən başlıca funksiyası məhz elə bundan ibarət olmalıdır.

Bazar münasibətlərində müxtəlif qiymət növlərindən istifadə olunması və həmin qiymətlər bazar tədqiqatlarının mühüm obyektlərindən olmalıdır. Əmtəəlik məhsullarnın alıcı ilə satıcı arasında münasibətləri əks etdirən əsas qiymətlər kimi aşağıdakılar çıxış edir: sərbəst və yaxud müqavilə qiymətləri; tənzimlənən qiymətlər; topdansatış qiymətləri; müqayisəli qiymətlər; tədarük qiymətləri.

Bazar iqtisadiyyatına keçidin əsas atributlarından biri məhz reallaşmada sərbəst qiymətlərə keçiddir. Sərbəst qiymətlər ümumi qiymət mexanizminin bir qolu, həm də aparıcı rolu olmaq etibarı ilə azad rəqabət əsasında formalaşmalı və dəyər qanununun tələblərinə həyata keçirməyin konkret bir təzahür forması olmalıdır. Əlbəttə, bu baxımdan ictimai-zəruri əmək sərfi ümumi qiymətqoymanın, o cümlədən müqavilə qiymətlərinin əsası olmalıdır. Yalnız bu şəraitdə qiymətlər real ola bilir və ictimai iqtisadi inkişafda müsbət təsir göstərər. Deməli, iqtisadi müstəqillik və azad rəqabət əsasında formalaşan müqavilə qiymətlərinin səviyyəsi məhsulun tam maya dəyəri və geniş təkrar istehsalı həyata keçirmək üçün müəssisə və əmək kollektivlərinin optimal rentabelliyi əsasında müəyyənləşdirilməlidir.

Müqavilə qiymətlərinin köməyi ilə istehsal subyektləri, o cümlədən dövlətlə müəssisələr, müəssisələrlə icarədarlar, müxtəlif müəssisələr arasındakı köhnə idarəetmə iqtisadi strukturundan qalan son dərəcə mürəkkəb və bürokratik iqtisadi mexanizm xeyli sadələşir və daha çevik olur. Bu yeni iqtisadi münasibətlərin qurulmasında və istehsalın idarə edilməsində ən başlıca şərtlərdən biridir. Müqavilə qiymətləri əsasında əmtəə mübadiləsi eyni zamanda müəssisələr arasında iqtisadi inteqrasiyanın güclənməsi və respublika aqrar-sənaye kompleksinin vahid bir orqanizm şəklində fəaliyyət göstərməsinin başlıca amillərindən biri kimi qiymətləndirilməlidir.

Fikrimizcə, aqrar iqtisadiyyatın aşağı templə inkişafının əsas səbəblərindən biri elə qiymət mexanizminin öz elmi əsasından ayrı düşməsi, real vəziyyəti düzgün əks etdirməməsi, onda çevikliyin və stimullaşdırıcı xarakterin olmaması və bununla da iqtisadi və sosial inkişafa düzgün təsir göstərə bilməməsidir.



Topdansatış qiymətləri öz əmtəələrini topdansatış ticarətlə məşğul olan sifarişçilərlə, müəssisələrlə, təşkilatlarla və s. reallaşdıran istehsalçılarla alıcılar arasında alqı-satqı prosesi zamanı formalaşır. Topdansatış qiymətlərinə həm də firma və müəssisələrin öz məhsullarını iri partiyalarla pərakəndə satış ticarəti müəssisələrində reallaşdırdığı qiymətlər aiddir.

Pərakəndə satış qiymətləri məhsulların alıcısından asılı olmayaraq pərakəndə ticarət müəssisələri tərəfindən reallaşdırıldığı qiymətlərdir. Pərakəndə satış qiymətlərinin əsasında topdansatış qiymətləri və topdansatış müəssisə və təşkilat-ları tərəfindən əldə edilən qiymətlər durur. Müəssisənin topdansatış qiymətlərinə ticarət əlavəsi qoyulmaqla tədavül xərclər örtülür, eyni zamanda pərakəndə satış müəssisələri tərəfindən müəyyən qədər mənfəət əldə olunur.

Təminatlı və yaxud mübadilə qiymətləri dövlət fondlarına kənd təsərrüfatı məhsullarının alışı zamanı tətbiq olunmalıdır. Yaradılan həmin fondlar kənd təsərrüfatı istehsalının tənzimlənməsində, aqrar istehsalın ayrı-ayrı növləri arasında zəruri nisbətlərin formalaşdırılmasında mühüm iqtisadi alət kimi istifadə olunur. Yuxarıda göstərilən qiymət növləri ilə yanaşı bazar iqtisadiyyatı şəraitində aşağıdakı qiymət növlərindən də geniş istifadə olunur: dünya qiymətləri; bazis qiymətləri; məlumat qiymətləri; transfer qiymətləri; girov qiymətləri.

Dünya qiymətləri məhsulların idxalı və ixracı zamanı tətbiq olunur. Bazar münasibətlərinə, açıq iqtisadi sistemə keçilməsi ilə əlaqədar olaraq Azərbaycan iqtisadiyyatında dünya qiymətlərinin tətbiqi genişlənmişdir.

Tənzimlənən qiymətlər. Bu qiymətlərin səviyyəsi dövlət orqanları tərəfindən tənzimlənir. Dövlət tərəfindən qiymətə təsir etməklə onu tənzimləmək cəhdləri məhdud və dolayı (qeyri-müstəqim) xarakter daşıyır və əmtəələrə olan tələb və ya təklifin səviyyəsinə təsir etməklə həyata keçirilir. Məsələn, bu və ya digər məhsul növünün istehsalını stimullaşdırmaq məqsədi ilə qiymətlərin yüksəldilməsi zərurəti yarandıqda dövlət alıcıların və həmin növ məhsul qrupları üzrə istehlakçıların ödədikləri vergiləri aşağı salır ki, bu da tələbin artmasına və uyğun olaraq qiymətlərin yüksəlməsinə gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, tənzimləmə vasitəsi ilə dövlət orqanlarının qiymətə təsiri təkcə mərkəzləşdirilmiş iqtisadiyyatda deyil, bazar iqtisadiyyatında da həyata keçirilir. Hər şeydən əvvəl, bazar iqtisadiyyatı şəraitində tənzimləmə dövlət və cəmiyyət üçün həyati əhəmiyyətə malik əmtəə və xidmətlər sferasında (torpaq, strateji xammal, yanacaq, enerji, ictimai nəqliyyat, ən zəruri istehlak məhsulları) tətbiq edilir.

Qiymətin dövlət tənzimlənməsi qiymətlərin müşahidə edilməsindən baş-

layır ki, o da bu sahədə dövlət fəallığının ilkin formasıdır. Qiymətlərin müşahidə edilməsini mərkəzi statistika idarələri həyata keçirir. Elmi-tədqiqat mərkəzləri beynəlxalq təşkilatlar qiymətlərin dəyişməsi ilə bağlı sərbəst tədqiqatlar aparırlar.

Qiymətqoymaya dövlət müdaxiləsi amortizasiya ayırmalarını maya dəyərinin tərkibinə daxil etməklə istehsal xərclərini yüksəltmək və sanksiyalar yolu ilə həyata keçirir. Qiymətqoyma prosesinə dövlətin birbaşa müdaxiləsi məhsullara aksiz dərəcəsinin tətbiqini nəzərdə tutan dövlət siyasətinin müəyyən edilməsindən ibarətdir.

İqtisadi tənzimlənmədə qiymət**.** Bazar iqtisadiyyatına keçmiş ölkələrdə qiymətin təbii yolla nizamlanması haqqında mülahizələrin geniş yayılmasına baxmayaraq, qiymət həmişə dövlət tərəfindən ən mühüm tənzimləmə obyekti olmuşdur.

Araşdırmalar göstərir ki, son illərdə kənd təsərrüfatı məhsulları istehsalının maya dəyəri artır, məhsul vahidi baha başa gəlir (cədvəl 1).

Cədvəl 1

Kənd təsərrüfatı məhsulları istehsalının maya dəyəri
(1 sentner/manat)

| **Göstəricilərin adı** | **İllər** | | | | |
|---|---|---|---|---|---|
| | 2000 | 2008 | 2009 | 2010 | 2011 |
| Dənililər və dənli paxlalılar | 6.81 | 12.84 | 11.71 | 14.91 | 14.15 |
| Xam pambıq | 20.32 | 31.37 | 34.7 | 36.51 | 45.3 |
| Şəkər çuğunduru (emal üçün) | 2.35 | 7.12 | 4.28 | 3.48 | 2.25 |
| Tütün | 23.30 | 48.77 | 60.76 | 37.30 | 52.79 |
| Yaşıl çay yarpağı | 22.25 | 43.64 | 72.04 | 75.31 | 51.59 |
| Kartof | 11.09 | 20.34 | 19.87 | 30.34 | 41.24 |
| Tərəvəz (açıq torpaqda ) | 7.64 | 7.94 | 14.88 | 15.30 | 12.50 |
| Bostan məhsulları | 4.15 | 18.29 | 8.17 | 7.87 | 7.91 |
| Meyvə və giləmeyvə | 5.44 | 23.08 | 46.28 | 24.41 | 30.18 |
| Üzüm | 13.71 | 21.5 | 29.80 | 21.07 | 28.60 |
| **Çəki artımı:** | | | | | |
| Iri buynuzlu mal-qara | 134.57 | 181.01 | 238.88 | 213.81 | 237.14 |
| Qoyun və keçi | 84.93 | 168.00 | 245.81 | 186.37 | 207.22 |
| Donuz | 169.85 | 200.55 | 266.54 | 600.00 | 901.14 |
| Quş | 120.67 | 134.35 | 158.57 | 192.40 | 158.61 |
| **Heyvandarlıq məhsulları:** | | | | | |
| Süd | 20.89 | 22.84 | 25.11 | 28.04 | 33.77 |
| Yun | 57.55 | 73.80 | 86.44 | 94.76 | 111.44 |
| Yumurta (min ədədlə) | 51.06 | 70.09 | 51.71 | 51.66 | 63.96 |

Cədvəldən göründüyü kimi 2000-ci illə müqayisədə bütün məhsullar



üzrə maya dəyəri yüksələrək 1,5 dəfədən 2011-cu ildə 2,3 dəfə artmışdır.

Araşdırmalar göstərir ki, respublikanın düzən ərazilərində yerləşən iqtisadi rayonlarda da kənd təsərrüfatı məhsullarının maya dəyərinin səviyyələrində bir o qədər fərq yoxdur. Həmin iqtisadi rayonlarda kənd təsərrüfatı məhsullarının maya dəyərlərinin səviyyəsində kəskin fərq müşahidə edilmir. Lakin dağlıq və dağətəyi rayonlarda eyni növ əkinçilik, bitkiçilik və heyvandarlıq məhsullarının maya dəyəri bir-birindən kəskin fərqlənir. Məsələn, 2011-ci ildə respublikanın ayrı-ayrı iqtisadi rayonları üzrə taxılın hər bir sentnerinin maya dəyəri 7,52-51,90 manat, xam-pambıq 16,45-31,75 manat, tərəvəz 5,24-19,63 manat, kartof - 18,47-30,92 manat, üzüm - 13,06-25,96 manat, meyvə 10,41-42,62 manat, mal-qaranın 1 sentnerinin çəki artımı 13,67-220,00 manat arasında dəyişmişdir. Əsas növ kənd təsərrüfatı məhsullarının maya dəyərinin səviyyəsi arasındakı fərq nisbəti ayrı-ayrı sahibkarlıq təsərrüfat formaları arasında daha böyük interval arasında dəyişir. Kənd təsərrüfatında eyni növ məhsulun maya dəyəri səviyyələrində müşahidə edilən fərq nisbətinin olmasını qanunauyğun hal kimi qiymətləndirmək olar. Çünki respublika daxilində eyni növ məhsulun istehsal şəraiti müxtəlifdir. Belə ki, taxıl Gəncə-Qazax, Lənkəran-Astara, Aran, Şəki-Zaqatala iqtisadi rayon zonasının təsərrüfatlarında istehsal edilir. Lakin hər dörd rayonda, həmçinin rayon daxilində inzibati rayonların, hətta hər bir təsərrüfat subyekti daxilində torpaqların münbitlik səviyyəsi, iqlim şəraiti, su və enerji təchizatı, aqrotexniki qaydalara əməl olunması müxtəlifdir. Eyni zamanda işçilərin ixtisaslarında, təsərrüfatçılıq qabiliyyətlərində onların sosial-iqtisadi infrastrukturunda, əməyin texniki vasitələrlə və enerji ilə silahlanma səviyyəsində ciddi müxtəliflik mövcuddur.

Kənd təsərrüfatında istifadə edilən maddi-texniki vasitələrinin qiymətinin artması ayrı-ayrı növ kənd təsərrüfatı məhsullarının maya dəyərinin səviyyəsini yüksəldir. Bununla belə maya dəyərinin tərkibində əmək haqqı xərcləri, ictimai sığorta ümumi istehsalat və ümumi təsərrüfat xərcləri, həmçinin satış məhsullarından gəlirlərə müəyyənləşdirilmiş gəlir vergisinin faizi də məhsul vahidinin maya dəyərinin artmasına səbəb olur. Statistik məlumatların təhlili göstərir ki, iqtisadi rayonlar üzrə kənd təsərrüfatı məhsullarının istehsalının maya dəyərində olan fərqlərlə əlaqədar olaraq məhsulların satış qiymətlərində də fərqlərin yaranmasına səbəb olmuşdur. Bunu cədvəl 2.6-dan görmək olar. Cədvəldən göründüyü kimi ölkə üzrə hər sentner taxıl satışının qiyməti 10.59 manatdan artaraq 14.8 manat xam pambıq satışı 18.97 – - 34.44 manat kartof satışı 15.92 – 38.60 manat, tərəvəz 5.71-22.3 manata, meyvə 17.00 – 37.2 manata, mal əti 84-56 və quş əti 102.39-234.8 manat, süd satışı 19.72 – 37.2 manat arasında dəyişmişdir.

Cədvəl 2

Kənd təsərrüfatı əmtəəlik məhsullarnın 1 sentnerinin satış qiymətlərinin dinamikası

| Məhsul istehsalı xərclərinin strukturu | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
| Dənlilər və dənli paxlalılar | 100.6 | 21.2 | 12.8 | 17.4 | 25.37 | 14.77 |
| Xam pambıq | 170.0 | 27.95 | 29.72 | 29.58 | 30.92 | 34.44 |
| Şəkər çuğunduru (emal üçün) | | | | | | |
| Tütün | 162.0 | 9432 | 63.78 | 297.5 | 800.0 | 733.5 |
| Yaşıl çay yarpağı | 104 | 26.82 | 27.74 | 327.0 | 442.7 | 838.9 |
| Kartof | 146.8 | 11.57 | 27.42 | 411.4 | 385.9 | 403.1 |
| Tərəvəz (açıq torpaqda) | 65.2 | 5.68 | 11.3.8 | 163.4 | 195.3 | 222.7 |
| Bostan məhsulları | 45.6 | 73.9 | 93.1 | 86.2 | 153.6 | 148.1 |
| Meyvə və giləmeyvə | 135.0 | 23.15 | 194.3 | 206.2 | 373.9 | 371.8 |
| Üzüm | 185.0 | 34.18 | 356.2 | 3688 | 399.4 | 320.4 |
| iri buynuzlu mal-qara | 816.2 | 15.05 | 170.20 | 175.77 | 249.63 | 218.44 |
| Süd | 218.4 | 23.33 | 24.20 | 27.59 | 36.98 | 37.19 |
| Yun | 327.2 | 80.72 | 101.68 | 120.91 | 168.63 | 166.85 |
| Yumurta (min ədədlə) | 35.9 | 4.79 | 53.3 | 71.2 | 71.1 | 64.3 |

Məhsul istehsalçıları öz məhsullarını birbaşa və yaxud dolayı kanallarla heç bir maneə olmadan öz istehlakçılara sata bilərdilər. Birbaşa kanala vasitəsilə - kartof, tərəvəz, bostan, meyvə, üzüm, bazarlarda, istehsalçının özünün xüsusi mağazasında, satış bazarlarında, birjalarda, xidmət müəssisələrinə topdansatış və pərakəndə satış yolu satış sistemini təşkil edirdilər.

Dolayı kanalla satış prosesində məhsulları istehsalçılardan istehlakçıya 71 çatdırmaq üçün aralıq vasitəçilərdən istifadə olunur. Aralıq vasitəçilər kimi dövlət təşkilatları, məhsulların alqı-satqısı üzrə ixtisaslaşmış xüsusi firmalar, istehlak kooperasiyaları, ticarət və sənaye müəssisələri, marketinq xidməti müəssisələri və s. tərəfindən həyata keçirilir. Dövlətə satılan əmtəəlik məhsullar satışında xüsusi çəkisinin azalmasına başlıca səbəb sistematik olaraq onlar tərəfindən müqavilə şərtlərinə əməl olunmaması, tədarük qiymətlərinin səviyyəsinin aşağı olması, həmçinin təhvil verilən məhsulların və s. dəyərinin vaxtında ödənilməsi olmuşdur. Belə vəziyyət isə məhsul istehsalçılarının geniş təkrar istehsalı həyata keçirən imkanlarını məhdudlaşdırmışdır.

Aparılan araşdırmalar göstərir ki, yeni iqtisadi şəraitdə tamamilə sərbəst olan istehsalçılar öz məhsullarının sərbəst sürətdə bazarda satışını başqa kanallarla müqayisədə daha sərfəli hesab etmişlər. Məsələn, əgər 1995-ci ildə taxılın bazarda satışı 36,5 %-ni təşkil edirdisə, 2006-cı ildə 94,9 %-ni təşkil



etmişdi. Kəndlinin məhsulunu satmaqda sərbəstliyi - hüquqi baxımdan təmin olunsa da təşkilati baxımdan hələ də çoxlu çətinlikləri var. Bu özünü kənd təsərrüfatı məhsulları bazarının infrastrukturunun formalaşdırılmasında daha qabarıq göstərir. Belə infrastruktur elementləri kimi kənd təsərrüfatı məhsulları birjalarının, topdansatış ərzaq bazarlarının, yarmarkalarının və s. təşkilinə böyük ehtiyac var.

Cədvəl 3

Əsas kənd təsərrüfatı məhsullarının satış qiymətləri səviyyəsinin dəyişmə meyli (1 sentner/manat)

| | 2000 | 2008 | 2009 | 2010 | 2011 | 2011-cu ildə 2000-ci ilə nisbətən artım |
|---|---|---|---|---|---|---|
| Dənli bitkilər | 10.59 | 13.24 | 13.52 | 24.13 | 14.8 | 13.9 |
| Pambıq xammalı | 18.97 | 26.97 | 29.13 | 33.21 | 34.4 | 181.3 |
| Tütün | 31.32 | 49.80 | 49.98 | 49.98 | 71.3 | 227 |
| Kartof | 15.92 | 18.29 | 25.00 | 39.25 | 38.6 | 243.1 |
| Tərəvəz | 5.71 | 12.96 | 14.15 | 17.77 | 22.3 | 390.1 |
| Meyvə | 17.00 | 26.73 | 39.12 | 45.41 | 37.2 | 218 |
| Üzüm | 10.02 | 26.01 | 31.20 | 31.68 | 32.0 | 319.4 |
| Bostan | 5.73 | 8.19 | 9.50 | 14.92 | 14.8 | 314 |
| Süd | 19.72 | 29.24 | 91.28 | 134.01 | 37.2 | 188.6 |
| Qara mal əti | 84.56 | 159.99 | 173.26 | 215.27 | 200.9 | 237.6 |
| Qoyun əti | 97.19 | 163.49 | 189.60 | 244.58 | 237.2 | 242.1 |
| Donuz əti | 104.00 | 196.83 | 276.05 | 281.67 | 197.8 | 184 |
| Quş əti | 102.39 | 135.67 | 180.30 | 270.10 | 234.8 | 229 |
| Yun | 26.44 | 58.29 | 91.28 | 134.01 | 166.8 | 630 |
| Yumurta (1000 dəfə) | 57.55 | 68.85 | 82.59 | 134.25 | 64.3 | 111 |

Emal müəssisələri tərəfindən, pambıq, tütün, şəkər çuğunduru, üzüm, yaşıl çay yarpağı, qismən olaraq dənli və dənli paxlalılar, tərəvəz, meyvə və s. məhsullarının satışı üstünlük təşkil edir. Hazırda təsərrüfat subyektlərinin xeyli hissəsi bitkiçilik məhsulları satışının 1,0-2,0 faizini, ayrı-ayrı məhsul satışı ilə məşğul olan fərdi və hüquqi subyektlərə, topdansatış və tədarük təşkilatlarına həyata keçirirlər. Kənd təsərrüfatı məhsulları istehsalçılarının 2-16 %-i təsərrüfatların özündə bitkiçilik məhsullarının satışını və 1-18 %-ni s. kanallar üzrə, yaxud barter yolu ilə təsərrüfat ehtiyaclarının ödənilməsi lazım olan xammal və materiallarla dəyişdirirlər.

Ölkədə aqrar sahənin dövlət tənzimlənməsi ilə bağlı bir sıra qanunvericilik aktları qəbul edilmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, dövlət tərəfindən tənzimlənən məhsulların (işlərin, xidmətlərin aqrar sahənin müxtəlif sahələri üzrə təbii inhisar, dövlət inhisarı və inhisarçı təsərrüfat subyektləri-

ni əhatə edən istiqamət daxil edilmişdir.

Məlumdur ki, qiymət siyasətində əsas məsələlərdən biri də istehsal və emal müəssisələri arasındakı qarşılıqlı iqtisadi əlaqələrin təşkili səviyyəsi ilə bağlıdır. Bu əlaqələrin səmərəliliyinin təmin olunması məqsədilə son dövrlər kənd təsərrüfatı məhsullarının dövlət tədarük təşkilatları vasitəsilə alınması ləğv edilməklə istehsal və emal müəssisələrinə tam iqtisadi sərbəstlik verilmişdir. Lakin bu tədbir azad qiymətlərlə satışın təşkili təcrübəsinin olmadığı bir şəraitdə həyata keçirildiyindən istehsalçı öz məhsullarının qiymətlərini müəyyən etməkdə ciddi çətinliklərlə qarşılaşmalı olurlar. Bundan başqa əmtəə istehsalçılarının qiymətqoyma prosesində sərbəstlik əldə etməsi bazar infrastrukturunun lazımi səviyyədə formalaşmadığı bir şəraitdə baş verdiyindən, həmçinin istehsalın həcminin azalması və material-texniki resursların qiymətlərinin həddən artıq yüksəlməsi səbəbindən kənd təsərrüfatı məhsulları qiymətlərinin düzgün əsaslandırılmasında problemlər yaranmışdır.

Öz növbəsində emal müəssisələri də yuxarıda qeyd olunan problemlərlə üzləşdiyindən alacağı məhsulların qiymətlərini emala çəkilən xərcləri nəzərə almaqla özünün maraqlarına uyğun şəkildə müəyyənləşdirməyə başlamışdır. Rəqabət mühitinin və məhsulların rəqabətqabiliyyətinin normal səviyyədə olmaması və bu kimi amillərin kənd təsərrüfatı məhsullarının dünya bazarına geniş şəkildə çıxarılmasına mənfi təsir göstərməsi nəticəsində istehsal müəssisələri onlara təklif olunan qiymətlərlə razılaşmağa məcbur olmuşdur. Deməli, bütün deyilənlərdən aydın olur ki, bazarın tələbi kənd təsərrüfatında istehsalın artırılmasında deyil, əksinə təklifm «boğulmasına» səbəb olmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olan kəndlini çıxılmaz vəziyyətə salır. Daha dəqiq desək, bəzi kənd təsərrüfatı məhsullarının qiymətqoyma prosesində güclü inhisarçılıq müşahidə olunmaqdadır.

Sərbəst (müqavilə) qiymətlərin qoyulması. Bu yolla dövlət ədalətsiz rəqabətə və bazarın inhisarlaşdırılmasına qadağalar tətbiq etməklə bazarda onun qaydasını müəyyən edir. Qadağalar aşağıdakılardan ibarətdir: qiymətlərin üfüqi və şaquli təsbit olunmasına qadağalar, qiymət ayrı-seçkiliyinə və dempinqə qadağa və ədalətsiz qiymət reklamına qadağada.

Qiymətlərin dövlət tənzimlənməsi inhisarlaşma dərəcəsinin və inhisarların qiymətlərə təsirinin zəifləməsi, milli inhisarların mənafelərinin bir-birinə ziddiyyətlilik dərəcəsinin daha az olduğu sahələrdə geniş tətbiq olunur. Bu qadağalar kənd təsərrüfatı və emal sənaye sahələrində və enerji sahəsinə də tətbiq olunur.

Hazırda aqrar sahədə qiymətlərin dövlət tərəfindən tənzimlənir və eyni zamanda dolayı yolla ərzaq məhsullarının pərakəndə satış qiymətləri tənzi-



mlənir. İstehsalın birbaşa tənzimlənməsi, birbaşa subsidiyaların verilməsi, əsaslı vəsait qoyuluşu, güzəştli kreditlərin verilməsi və s.

Xatırladaq ki, ABŞ-da fermerlərin istehsal etdiyi kənd təsərrüfatı məhsulları dəyərinin təxminən 60 %-ə qədərini, Finlandiya, İsveçrə və Yaponiyada isə 70 %-i dövlətin maliyyə vəsaitləri təşkil edir. Bu isə yerli sahibkarların maraqlarının qorunmasında əhəmiyyətli rol oynayır.

**Dissertasiya işinin üçüncü fəslində "Aqrar sahədə qiymət mexanizmin tənzimlənməsinin prioritet istiqamətləri"** tədqiq edilir. Burada aqrar bazarda yeni siyasət çərçivəsində qiymət mexanizminin dövlət tənzimlənməsinin prioritet istiqamətləri müəyyənləşdirilir və aqrar bazarın səmərəli fəaliyyət mexanizminin yaradılmasının yolları göstərilir.

Bazar münasibəti şəraitində inkişaf etmiş aqrar bazarın təcrübəsi ümumiləşdirilir və yeni şəraitin xüsusiyyətləri nəzərə alınaraq qeyd edilir ki, hazırda ən başlıca vəzifələrdən biri aqrar bazarın səmərəli fəaliyyət mexanizminin yaradılmasına imkan yaradan mövcud qiymət mexanizminin təkmilləşdirilməsidir.

Ölkə Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nda göstərilir ki, ölkədə qiymət sistemi mexanizminin yenidən qurulmasının müəyyənedici istiqamətlərinin və qiymətlərin quruluşunun yeni metodoloji prinsiplərinin hazırlanması mövcud qiymətlər sisteminə xas olan konkret nöqsanların aradan qaldırılması tələb olunur. Belə ki, bazar özünütənzimləmə mexanizminin mühüm tərkib maddəsi kimi çıxış edən qiymət bir çox hallarda iqtisadi konyunkturun təsirinə məruz qalır ki, bu da davamlı inkişafda tərəddüdlük yaradır. Qiymət mexanizmi istər makroiqtisadi çərçivədə ölkənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsinə, istərsə də mikro səviyyədə hər bir əmtəə istehsalçısının gəlirlərinin artırılmasında mühüm amil kimi çıxış edir. Bu baxımdan qiymət münasibətlərinin tənzimlənməsi, onun aqrar əmtəə istehsalçılarının eləcə də istehlakçılarının maraqları baxımından təkmilləşdirilməsi aqrar sahənin səmərəli inkişafında da olduqca mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, iqtisadiyyatın liberallaşdığı və qloballaşma prosesinin inkişafı şəraitində bu sahənin səmərəli inkişafının qiymət mexanizminin təkmilləşdirilməsi həm məhsul istehsalının stimullaşdırılmasında, həm də daxili ərzaq bazarının qorunmasında prioritet istiqamət kimi çıxış edir. Qiymət sistemi elə qurulmalıdır ki, o istehlakçının mənafeyinə toxunmadan istehsalçıda da güclü stimul yaratması, ərzaq bazarına ərzaq məhsulları çıxaran təsərrüfat subyektlərini istehsalın genişləndirilməsinə və səmərəliliyinin yüksəldilməsinə sövq etsin.

İqtisadiyyatın başqa sahələrindən fərqli olaraq kənd təsərrüfatında qiymətlər daha stimullaşdırıcı xarakterə malik olmalı və bu sahədə məhsuldar qüvvələrin inkişafına təkan verən əsas iqtisadi amillərdən biri olmalıdır.

Qiymətini dövlət tərəfindən tənzimlənməsində məqsəd konyunktur dəyişiklikləri, təbii şəraitin əlverişsizliyi, məhsul istehsalına xərclərin artması, xarici rəqabətin əlverişsiz təsirlərinin aktivləşməsinin qarşısının alınması, istehsalçıların istehsalın artırılması sahəsində fəaliyyətlərinin ziyanla qarşılaşmalarının aradan qaldırılması və istehlakçıların müdafiəsinin təmin olunmasına yönəldilir. Dövlət qiymətin aşağı və yuxarı səviyyəsini əvvəlcədən müəyyənləşdirməli, istehsalçıların geniş təkrar istehsalın inkişafını nəzərə alaraq zəruri gəlir səviyyəsini təmin etmək üçün dotasiya və kompensasiyalar həyata keçirməlidir. Ancaq bunlara baxmayaraq əmtəəlik məhsullarnın qiyməti yenə də bazarın mühüm instrumenti kimi qalır.

Qiymət həddini təmin etmədikdə dövlət orqanları qiymətlərin minimum həddinin formalaşdırılmasına müdaxilə edə bilər. Bunun da əsas səbəbi daxili bazarda yerli istehsalın inkişafının stimullaşdırılması baxımından əsas problemlərdən biridir. Bununla yanaşı kənd təsərrüfatı məhsullarının qiymət səviyyəsinə qeyri-müstəqil müdaxilə vasitələri də tətbiq edir. Ölkəmizdə bu problemin həlli hələlik olduqca zəif olub, sahibkarlıq təsərrüfatçılıq subyektləri üçün satışın təşkili problem olaraq qalır. Bu problemin zəif həlli istehsal olunan əmtəəlik məhsullarnın satışı mərhələsində itkilərin yaranmasına, məhsulların keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır.

Aqrar sahədə qiymətlərin formalaşdırılmasına təsir göstərən amillər çoxsaylı olub onların müəyyən edilərək vahid məxrəcə gətirilməsi qiymətlərin formalaşdırılmasında müəyyən çətinliklər yaradır. Həmin amillərə - iqlim şəraiti, relyef xüsusiyyətləri, istehsalın mexanikləşmə səviyyəsi, məhsul istehsalının mövsümlüyü, istehsalın və əməyin təşkili, məhsulların keyfiyyət səviyyəsi, istehsal sahələrinin yerləşdirilməsi, ekoloji cəhətdən sağlamlığı, bazarda tələbat satış kanallarında aralıq iştirakçılarının və vasitəçilərinin sayı, rəqabət, pul-kredit, büdcə-vergi və maliyyə siyasəti, istehsalın həcmi, pulun dövriyyə sürəti və onun kütləsi və s. daxil olub hər bir amil ayrılıqda məhsulların qiymətinə özünəməxsus təsir göstərir.

Ölkə şəraitinin reallıqları nəzərə alınmaqla kənd təsərrüfatı məhsulları istehsalçılarının mənafeyinə daha çox uyğun gələn qiymətqoyma metodu qiymətlərin orta xərclər üstəgəl mənfəət metodu ilə müəyyənləşdirilməsidir. Eyni zamanda kənd təsərrüfatı məhsulları istehsalçıları bazarda yaranmış vəziyyətdən asılı olaraq öz məhsullarına (onların istehlakçılar tərəfindən qiymətləndirilməsi nəzərə alınmaqla) qiymət qoymaq imkanlarına malikdirlər. Birinci metod kənd təsərrüfatı məhsulları istehsalçılarının geniş təkrar



istehsalı həyata keçirmələri baxımından daha etibarlıdır. Lakin bu metod vasitəsilə də istehsalçı öz məhsuluna qiymət qoyması hələ onu satmasına təminat vermir. Ona görə də fikrimizcə, bu metod, yəni orta xərclər üstəgəl mənfəət metodu, əsas götürülməklə başlıca növ kənd təsərrüfatı məhsullarına təminatlı qiymət səviyyələri müəyyənləşdirilməli və həmin qiymətlər əlaqədar orqanlar tərəfindən təsdiq olunmalıdır. Daha doğrusu, məhsul istehsalçılarının təminatlı daxili bazarı olmalıdır.

İnkişaf etmiş xarici ölkələrdə isə çox vaxt bu və ya digər məhsul növləri üzrə daha yaxşı ixtisaslaşmış fermer təsərrüfatlarının göstəriciləri əsas götürülməklə təminatlı qiymət səviyyələri müəyyənləşdirilir. Həmin ölkələrdə təminatlı qiymət səviyyələri fermerlər üçün, onların istehsal-təsərrüfat fəaliyyətlərinin davamı üçün reallıq kəsb edir.

Hazırda ölkədə göstərilən səmərəli qiymət mexanizmin tətbiqinə kəskin ehtiyac var. Çünki bu zamana qədər qiymətlərin formalaşmasının tamamilə bazar mexanizminin öhdəsinə buraxılması aqrar sahənin inkişafına kəskin mənfi təsir göstərmiş və külli məbləğdə kapital iqtisadiyyatın başqa sahələrinə axın, nəticədə aqrar sahənin zəruri artım tempi ilə inkişafını təmin etmək mümkün olmamışdır.

Sərbəst qiymətlərin fəaliyyət mexanizminə şərait yaratmaq üçün torpaq islahatı, əməyin ödənilməsi islahatı başa çatdırılmalı, iqtisadiyyatın inhisarsızlaşdırılması və özəlləşmə həyata keçirilməlidir. Ən vacib şərt kimi bazarın özünütənzimləmə mexanizminə xas olan bazar rəqabəti formalaşmalıdır. İnhisarçı - müəssisələrə qarşı, süni qiymət artırmanın və ya azalmanın qarşısını almaq üçün, görülən tədbirlər gücləndirilməlidir.

Topdansatış bazarının normal fəaliyyət göstərməsi üçün onlarda marketinq xidməti təşkil olunmalıdır. Marketinq xidmətinin vəzifələrinə aşağıdakı məsələlər daxil olmalıdır: ərzaq bazarının kompleks tədqiqi, istehlakçıların tələblərinin istehsalçılara çatdırılması, istehlakçıların əlverişli qiymətlərlə yüksək keyfiyyətli məhsullarla təmin olunması və s.; əmtəələrin hərəkə-tinin öyrənilməsi, onların rəqabət qabiliyyətliliyinin aşkara çıxarılması, satışın planlaşdırılması və s.; tələb və təklifin formalaşdırılması üzrə tövsiyələrin hazırlanması da marketinq xidməti tərəfindən həyata keçirilməlidir.

İşin sonunda ümumiləşdirmələr əsasında **təkliflər** verilmişdir.

Dissertasiya işinin mövzusu ilə bağlı aşağıdakı məqalələr dərc edilmişdir.

1. Vergi sistemi və iqtisadi sabitləşmədə onun rolu. Azərbaycan Dövlət İqtisad Universiteti Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyinə həsr edilmiş "Bazar iqtisadiyyatına keçid və Azərbaycanın sosial-iqtisadi problemləri" mövzusunda Tələbə Elmi Cəmiyyətinin konfransının tezisləri. Bakı, 2001, s. 34-35.

2. Şəhər əmlakının qiymətləndirilməsi və vergi. Müasir əmlak bazarı və qiymətləndirmə fəaliyyətinin qanunvericilik təminatı mövzusunda II beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2001, s. 59-61

3.İnflyasiyanın məqsədli göstəriciləri və onun tətbiqinin əhəmiyyəti. Azərbaycan Dövlət İqtisad Universiteti "İqtisad elmləri: nəzəriyyə və praktika" Rüblük nəzəri və elmi-praktiki jurnal. Bakı, 2003, №3-4, s.156-158.

4. Aqrar sahədə qiymət mexanizminin təkmilləşdirilməsi istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsində əsas amillərdəndir. Azərbaycan Dövlət İqtisad Universiteti "İqtisad elmləri: nəzəriyyə və praktika" Rüblük nəzəri və elmi-praktiki jurnal. Bakı, 2009, №3-4, s.223-227.

5. Aqrar sahədə əmtəə məhsulları satışı bazarlarımn formalaşdırılması. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatının iqtisadi problemlərinə həsr edilmiş respublika elmi-praktik konfransın materialları. Bakı, 2009, s. 207-208

6. Aqrar sahədə qiymət mexanizminin təkmilləşdirilməsinin istehsalın iqtisadi səmərəliliyinin artırılmasında rolu. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Elmi əsərləri" Bakı, 2009, s. 252-257.

7. Aqrar sahədə qiymət mexanizminin təkmilləşdirilməsinin bəzi məsələləri. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu "İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemlərinə həsr edilmiş beynəlxalq elmi- praktik konfransın materialları. Bakı, 2010, s. 228-230.

8. Ценовая политика и ценовая стратегия предприятий в рыночных условий. Научный вестник Луганского Национального Аграрного Университета, №13, Луганск, 2010, с. 102-107.

9. Aqrar sahədə innovasiya prosesi əsasında qiymət mexanizminin təşkilinin bəzi məsələləri. Sumqayıt Dövlət Universiteti. Azərbaycan Respublikasında İnnovasiya yönümlü iqtisadi inkişafın problemləri və onların həlli yolları mövzusunda Respublika elmi konfransının materialları, Sumqayıt, 2010, səh 45-46.

10. Aqrar sahədə qiymət mexanizminin təkmilləşdirilməsinin ərzaq məhsulları istehsalının artırılmasında rolu. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Elmi əsərləri", Bakı, 2011, s.319-321.



## РЕЗЮМЕ

**Сулейманова Афаг Иса кызы**

### ОЦЕНОЧНЫЙ МЕХАНИЗМ В АГРАРНОЙ СФЕРЕ И ЭКОНОМИЧЕСКИЕ ПРОБЛЕМЫ ЕГО ФОРМИРОВАНИЯ

Диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность избранной темы, характеризуется степень её изученности, указываются цель и обязанности исследования, научная новизна исследования, теоретические и методологические основы исследования, объект исследования, практическое значение исследования, проведение испытаний результатов исследования и использование.

В первой главе работы изучаются « Формирование оценочного механизма и научно-теоретические основы его развития». Здесь в основном рассматриваются научно-теоретические основы образования и формирования механизма оценочного рынка , экономическая суть оценочного механизма, методологические особенности и условия формирования.

Во второй главе работы анализируется «Тенденции развития и нынешнего состояния государственного регулирования оценочного механизма в аграрной сфере». Здесь в основном рассматривается экономический анализ имеющегося состояния оценочного механизма в аграрной сфере, экономическая оценка продажи товарной продукции в аграрной сфере, состояние государственного регулирования цен в аграрной сфере и тенденции развития.

В третьей главе диссертационной работы расследуются «Приоритетные направления регулирования оценочного механизма в аграрной сфере». Здесь говорится о приоритетных направлениях регулирования оценочного механизма новой экономической аграрной политики и аграрной сфере, пути совершенствования государственного регулирования цен в аграрной сфере, об основных направлениях формирования оценочного механизма в создании механизма продуктивной деятельности аграрного рынка.

В заключительной части диссертационной работы на основе обобщения результатов исследования сформулированы выводы.

**SUMMARY**
**Suleymanova Afag Isa**

**THE PRICE MECHANISM IN AGRARIAN FIELD AND THE ECONOMIC PROBLEMS OF ITS FORMATION**

The thesis work consists of introduction, three titles, summary and list of used literature.

The actuality of the selected subject is based, its investigation degree is characterized and the aims and duties of the investigation, the scientific innovations, the theoretical-methodological bases, the object of the investigation, the practical importance of the investigation, the testing and use of the results of the investigation are shown in the introduction.

"The formation of price mechanism and its scientific-theoretical bases of its development" is learnt in the first title of the work. The formation of market price and the scientific-theoretical bases of the formation, the economic essence of price mechanism, the methodological features and terms of the formation are investigated here.

In the second chapter "The present condition and development inclinations of state regulation of price mechanism in agrarian field" is analyzed. The economic analyze of present condition of price mechanism in agrarian field, the economic valuation of commodity goods sale in agrarian field, the condition and development inclinations of state regulation of price mechanism are analyzed here.

"The priority directions of price mechanism in the agrarian field" is investigated in the third chapter of the thesis work. The agrarian new economic politics and the directions of state regulation of price formation in the agrarian field, the main directions of formation of price mechanism in the formation of efficient activity mechanism of the agrarian market are spoken here.

In the summary part of the thesis work the results are gained on the basis of the connection of investigation results.





Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 243, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
---------------------------------------------------------------------------------
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**АГРАРНЫЙ УНИВЕРСИТЕТ**
============================================

*На правах рукописи*

**Сулейманова Афаг Иса кызы**

# ОЦЕНОЧНЫЙ МЕХАНИЗМ В АГРАРНОЙ СФЕРЕ И ЭКОНОМИЧЕСКИЕ ПРОБЛЕМЫ ЕГО ФОРМИРОВАНИЯ

**5312.01 – «Экономика отрасли»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа – 2013**